## bp-in Azərbaycan, Gürcüstan, Türkiyə, Yaxın Şərq və Şimali Afrikada layihələr üzrə vitse-prezidenti Mətt Kirkhamın Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci iclasında çıxışı

4 aprel 2025-ci il

### Şahdəniz: öhdəlikləri yerinə yetiririk

### Slayd 1 - Giriş

- Hörmətli həmsədrlər, xanımlar və cənablar, hər vaxtınız xeyir!
- Bu gün sizinlə birlikdə bu tədbirdə iştirak etməkdən çox məmnunam.
- Bu forumun əhəmiyyəti ildən-ilə artır.
- Elə sürətlə dəyişən müasir enerji mühitində Cənub Qaz Dəhlizi və Şahdəniz layihələrinin artan rolu kimi.
- Bunun səbəblərini izah etmək istərdim.

### Slayd 2 – Enerji tələbatının qarşılanmasına dəstək

- Enerjiyə olan tələbat artmaqda davam edir.
- Eyni zamanda, karbon emissiyalarının azaldılmasına ehtiyac var.
- Dünya "enerjiyə əlavə" mərhələsindədir.
- Get-gedə daha çox həm karbohidrogenlər, həm də aşağı karbonlu enerji istehlak etməklə artan tələbatı ödəyir.
- Neft və qaza hələ qarşıdakı onilliklər ərzində də ehtiyac olacaq.
- 2035-ci ilə qədər neft və qaza olan yüksək tələbatın davam edəcəyini düşünürük.
- Xüsusilə, inkişaf etməkdə olan iqtisadiyyatlarda təbii qaza olan tələbatın artacağı proqnozlaşdırılır.

- bp-nin yenilənmiş strategiyası artan tələbatın qarşılanmasını dəstəkləmək üçün nəzərdə tutulub.
- Məqsədimiz bu gün və gələcəkdə dünyanı enerji ilə təmin etməkdir.
- Biz kəşfiyyat və hasilat sahəsindəki fəaliyyətləri genişləndirməyi, yəni:
    - 2027-ci ilədək neft və qaz sahəsinə qoyulan investisiyaları ildə 10 milyard dollara qədər artırmağı,
    - Hasilatı artıraraq 2030-cu ildə gündəlik 2.3-2.5 milyon barelə çatdırmağı,
    - və portfelimizi gücləndirməyi planlaşdırırıq.
- Biz öz planlarımızdan əminik.
- Çünki iri və mürəkkəb yataqların işlənməsi və idarə olunması sahəsində geniş təcrübəmiz var.
- Biz həmçinin yüksək səviyyədə inteqrasiya olunmuş neft-qaz dəyər zəncirlərini idarə edirik.
- Azərbaycandan Avropaya və Cənub Qaz Dəhlizi boyunca yerləşən ölkələrə qaz təmin edən Şahdəniz layihəsi buna gözəl nümunədir.

## Slayd 3- Şahdəniz: təhlükəsiz və səmərəli icra

- Çox məmnunuq ki, Şahdəniz təhlükəsiz və səmərəli şəkildə qaz hasilatını davam etdirir.
- Və bununla Azərbaycanın Avropa və regional bazarlar qarşısındakı öhdəliyinin yerinə yetirilməsinə dəstək verir.
- Ötən il, Şahdəniz ən yüksək sabit hasilat səviyyəsini keçərək, təxminən 28 milyard kubmetr qaz hasil edib.

- Bu nailiyyətin əsasında, demək olar ki, 100% lay, quyu və ixrac etibarlılığı dayanıb.
- Bu gün Şahdəniz bp-nin portfelində ən böyük qaz yatağıdır.
- Hazırda Şahdəniz qurğuları gündə təqribən 79 milyon standart kubmetr qaz hasilatı və emalı gücünə malikdir.
- Cənub Qaz Dəhlizinin operatorları birlikdə çalışaraq Avropaya gündəlik ixrac həcmlərini artıraraq ildə təxminən 12 milyard kubmetrə çatdırıblar.
- Bu ötürücülük gücü hazırda da qüvvədədir və tez-tez istifadə edilir.
- Eyni zamanda biz TAP boru kəmərinin mərhələli genişləndirilməsi üzrə işləri davam etdiririk.
- Məqsədimiz 2026-cı ildən başlayaraq Avropaya ümumi ixrac gücünü gündəlik təxminən 14 milyon kubmetrə çatdırmaqdır.
- Biz həmçinin Şahdənizin texniki təhlükəsizliyini, istismar səmərəliliyi və dayanıqlığını artırmaq istiqamətində də işlər görürük.
- Keçən il Şahdəniz Alfa platformasının elektrik təchizatı layihəsini tamamladıq.
- Bu layihə Alfa platformasına sualtı cərəyan və fiber-optik kabel vasitəsilə 8 kilometr aralıda yerləşən Bravo platformasından birbaşa elektrik enerjisi almaq imkanı yaratdı.
- Bununla Alfada istifadə olunan beş dizel generatoruna ehtiyac aradan qaldırıldı.
- Nəticədə, layihə əməliyyat səmərəliliyini artırmaqla, enerji təchizatının daha etibarlı, uzunmüddətli və fasiləsiz olmasını təmin etməyə və xərcləri azaltmağa imkan yaratdı.
- Eyni zamanda, biz Şahdəniz sualtı hasilat sistemini genişləndiririk.

- Ötən ilin oktyabr ayından Şahdəniz yatağındakı beş sualtı cinahın hamısı artıq istismardadır.
- Biz növbəti illərdə əlavə altı quyunun istismara verilməsini planlaşdırırıq.
- Bütün bunlar bazarlar üzrə götürdüyümüz öhdəliklərin yerinə yetirilməsinə əlavə imkan yaradacaq.

## Slayd 4 – Şahdənizdə növbəti addım

- Gələcək perspektivdə, əsas diqqətimizi Şahdəniz yatağındakı məhsuldar laylardan maksimum qazvermə əmsalına nail olmağa yönəltmişik.
- Eyni zamanda enerji təchizatının davamlı olmasını təmin etmək üçün ən yüksək sabit hasilat səviyyəsini mümkün qədər uzatmaq istiqamətində də çalışırıq.
- Bunlara nail olmaq üçün hazırda Şahdəniz kompressiya layihəsi üzərində işləyirik.
- Bu, Şahdəniz yatağının işlənməsində növbəti addımdır.
- Layihənin əsas məqsədi aşağı təzyiqli qaz ehtiyatlarını əlçatan etmək və maksimum qazvermə əmsalına nail olmaqdır
- Layihə elektrik enerjisi ilə işləyən kompressiya qurğularından ibarət dəniz platformasının tikintisini və istismarını nəzərdə tutur.
- Hazırda ekranda bu platformanın 3D modelini görürsünüz.
- Platforma elə layihələndirilib ki, o, daimi heyət olmadan məsafədən idarə olunacaq və bütövlüklə elektrik enerjisi ilə işləyəcək.
- Gələcəkdə bu platforma Şahdəniz Bravonun elektrik enerjisi ilə təchiz olunmasına da xidmət edəcək.
- Və nəhayət, yataqdakı əməliyyatların bütövlükdə elektrik enerjisinə keçidinə imkan yaradacaq.

- Layihə hazırda Müəyyənləşdirilmə mərhələsindədir.
- Biz layihənin ətraf mühitə və sosial sahəyə təsirinin qiymətləndirilməsini hökumət və ictimaiyyətlə müzakirə edirik.
- Məqsədimiz bu ilin ortalarına yekun investisiya qərarına nail olmaq, gələn il tikintiyə başlamaq və 2029-cu ildə platformanı istismara verməkdir.
- Bütün bunlar Şahdəniz yatağında ən yüksək sabit hasilat dövrünün bu onillikdən sonrakı illərə də uzanmasına kömək edəcək.

Slayd 5 - Yeni imkanların açılması

- Eyni zamanda, Şahdəniz yatağından əlavə digər yeni qaz mənbələrinin axtarışındayıq.
- AÇG yatağındakı sərbəst təbii qaz laylarının işlənməsini və qaz hasilatını həyata keçirmək üçün ötən ilin sentyabr ayında AÇG HPBS-yə əlavə imzaladıq.
- Bu laylarda çıxarıla bilən təbii qaz ehtiyatlarının xeyli iri həcmdə- 4 trilyon kubfutadək olduğu düşünülür.
- Ekranda gördüyünüz mövcud Qərbi Çıraq platformasından bu yaxınlarda ilkin istismar quyusunun qazılmasını bitirdik.
- Və ilk qaz hasilatının bütün tamamlama və sualtı birləşdirmə işləri bitdikdən sonra cari ilin sonunadək olacağını gözləyirik.
- Bu quyu olduqca əhəmiyyətlidir, çünki o, hasilat vasitəsilə qiymətləndirmə aparmağa da imkan verəcək.
- Bunun əsasında isə gələcək işlənmə planlarını qurmaq mümkün olacaq.
- Biz həmçinin əməliyyatlarımızın elektrikləşdirilməsi vasitəsilə daha çox qaza qənaət etmək üçün mümkün yollar axtarırıq.
- Səngəçal terminalının elektrikləşdirilməsi bu yollardan biridir.

- Bu, Cəbrayılda inşa ediləcək Şəfəq adlandırdığımız 240MVt gücündə günəş elektrik stansiyası layihəmizlə birbaşa əlaqəlidir.
- Bu layihə yeni "virtual enerji ötürülməsi modeli"-nin ilk tətbiqini nəzərdə tutur.
- Həmkarım Kolin bu gün keçiriləcək Yaşıl Enerji panelində bu mövzuda daha ətraflı danışacaq.
- Bu model Cəbrayılda istehsal olunmuş elektrik enerjisinin dövlətin enerji sistemindən alınan cərəyanla balanslaşdıraraq bunun hesabına Səngəçal terminalını elektriklə təmin etməyə imkan yaradacaq.
- Bu isə terminalın istismarı üçün lazım olan yanacaq qazının yandırılmasına olan ehtiyacı aradan qaldıracaq.
- Və beləliklə də, daha çox həcmlərin ixraca yönəldilməsinə imkan yaradacaq.
- Biz AzərEnerji ilə birgə çox məhsuldar işləyərək artıq bir sıra əsas elementləri razılaşdırmış və ilkin texniki layihələndirmə işlərini tamamlamışıq.
- Bu sıx əməkdaşlıq nəticəsində həm Səngəçal terminalının elektrikləşdirilməsi, həm də Şəfəq layihəsi üzrə yekun investisiya qərarlarının verilməsinə, demək olar ki, artıq hazırıq.
- Qarşıdakı aylarda bu növbəti mühüm mərhələnin əldə olunmasına ümid edirik.

## Yekun

- Yekun olaraq, icazənizlə çıxışımın əvvəlində qeyd etdiyim məqama bir daha toxunmaq istəyirəm.

- Qlobal enerji tələbatı artmaqda davam edir.
- Neft və qaz enerji balansının vacib tərkib hissəsi olaraq qalır.
- Şahdəniz yatağı və Cənub Qaz Dəhlizi regionda və Avropada enerji təhlükəsizliyinin təmin olunmasında çox mühüm rol oynayır.
- bp-nin yenilənmiş strategiyası operator kimi üzərimizə götürdüyümüz öhdəlikləri bir daha vurğulayır.
- Bu öhdəliklər:
- Xəzərdən qazı təhlükəsiz və etibarlı şəkildə hasil etmək,
- Regional və Avropa bazarlarını hasil edilmiş qazla təmin etmək,
- Və Azərbaycanın Cənub Qaz Dəhlizi vasitəsilə qaz ixracının artırılması planlarına dəstək olmaqdır.
- Uzunmüddətli və etibarlı tərəfdaş kimi biz Azərbaycana Cənub Qaz Dəhlizi ilə bağlı planlarının həyata keçirilməsində və enerji keçidi prosesində dəstəyimizi davam etdirməyə hazırıq.
- Diqqətinizə görə təşəkkür edirəm.

-SON-